*Nəsimi rayonu*

# 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş tədbirlər







**Gələcəyimiz olan uşaqların vətənpərvər ruhda, sağlam böyüməsi istiqamətində aparılan işlər hər zaman Nəsimi Rayon İcra Hakimiyyətinin diqqət mərkəzində olmuşdur. 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi günü münasibəti ilə Nəsimi Rayon İcra Hakimiyyəti tərəfindən xüsusi tədbirlər planı hazırlanmış, keçiriləcək tədbirlərə daha çox uşağın cəlb olunması nəzərdə tutulmuşdur.**

Nəsimi rayonu ərazisində yerləşən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Bakı Baş Səhiyyə İdarəsinin 1 saylı Körpələr Uşaq Evi 2015-ci ildə Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir olunmuş, valideyn himayəsindən məhrum olmuş uşaqların yaşaması üçün hər cür şərait yaradılmışdır. 1iyun 2016-cı il tarixdə **Nəsimi Rayon İcra Hakimiyyəti başçısı Asif Əsgərov** 1 saylı Körpələr Evində olmuş, valideyn himayəsindən məhrum olmuş uşaqlara baş çəkmiş, onların vəziyyəti ilə maraqlanmış, uşaqlara bayram hədiyyələri təqdim edilmişdir. Görüşdə iştirak edənlər Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və İSESCO-nun xoş məramlı səfiri, Millət Vəkili Mehriban xanım Əliyevaya daima uşaqlara göstərdiyi diqqət və qayğıya görə dərin minnətdarlıqlarını bildirmişlər.

"1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü" münasibəti ilə rayonun 11 və 268 nömrəli Xüsusi məktəblərində təhsil alan fiziki cəhətdən qüsurlu uşaqların iştirakı ilə 268 saylı məktəbdə tədbir keçirilmişdir.

268 saylı xüsusi məktəb 1927-ci ildən fəaliyyət göstərir, 2003-cü ildə Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir edilmişdir. Məktəbdə 879 nəfər fiziki qüsurlu uşaq təhsil alır. 11 saylı xüsusi məktəb isə 1947-ci ildən fəaliyyət göstərir. Bu məktəbdə 894 nəfər fiziki qüsurlu uşaq təhsil alır.

Tədbirdə əvvəlcə uşaqların əl işlərindən ibarət sərgiyə tamaşa edilmiş, rəngarəng əl işləri sərgiyə gələnlərdə xoş ovqat yaratmışdır. Nəsimi Rayon İcra Hakimiyyəti başçısı Asif Əsgərov bayram tədbirində iştirak edən uşaqları salamladı, 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibəti ilə onları təbrik edərək bildirdi ki, ölkəmizdə uşaqlara xüsusi məhəbbət, xüsusi diqqət və qayğı vardır. Onların Vətənə layiqli vətəndaşlar kimi böyüməsi, cəmiyyətdə sağlam mövqe tutması üçün Azərbaycan dövləti hər cür şərait yaratmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uşaq hüquqlarının müdafiəsi sahəsində atdığı addımlar xalqımızın övldlarının taleyində əhəmiyyətli rol oynayacağına zəmanət verir.



Tədbir zamanı hər iki məktəbdə təhsil alan fiziki qusurlu 9 nəfər uşağa TUSİAB tərəfindən əlil arabaları təqdim edilmişdir. 11 və 268 nömrəli Xüsusi Məktəblərdə təhsil alan fiziki cəhətdən qüsurlu uşaqlar qonaqların qarşısında rəngarəng konsert proqramı ilə çıxış etmişlər.

Tədbirdə Milli Məclisin deputatı Kamran Nəbizadə, TUSİAB nümayəndələri Muhsin Sarıhan, Selcuk Düzgün, Məmmədəmin Asud və Nəsimi rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Tədbirlər planına uyğun olaraq, rayon məktəblərinin təhsildə və idmanda fərqlənən, uşaq bağçalarında tərbiyə alan uşaqları üçün Zorge parkında musiqili-əyləncəli bayram şənliyi təşkil olunmuşdur.

Uşaqlar qarşısında çıxış edən Nəsimi Rayon İcra Hakimiyyəti başçısı Asif Əsgərov burada iştirak edən bütün uşaqları və onların valideynlərini 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi günü münasibəti ilə təbrik etmiş, onlara can sağlığı, xöşbəxt həyat və səadət arzulamışdır..

Azərbaycan Prezidenti cənab İlham Əliyevin Uşaq hüquqlarının müdafiəsi sahəsində atdığı addımlar, ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın gördüyü işlər bu ənənələrin hələ uzun illər yaşayıcağına və Azərbaycan uşaqlarının taleyində əhəmiyyətli rol oynayacağına zəmanət verir. Heydər Əliyev Fondunun fəaliyyəti Azərbaycanın gələcəyi olan uşaqlara yüksək qayğı nümunəsi olmaqla yanaşı, cəmiyyətin ümumi potensialının bu gün də səfərbər olunmasına yönəlmişdir.

Tədbir zamanı **LOQOS Psixoloji və Nitq İnkişaf Mərkəzinin** peşəkar psixoloqları tərəfindən ödənişsiz konsultasiyalar, artterapiya keçirilmişdir.

Parkda musiqiçilərin şən ifaları altında uşaqlar xeyli rəqs etmiş, yallı getmiş, daha sonra isə öz məharətlərini göstərərək şeir, mahnılarla həmyaşıdları qarşısında çıxış etmişlər.

1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibəti ilə rayon ərazisində yerləşən "KOALA" istirahət və əyləncə mərkəzində də uşaqlar üçün bayram tədbiri keçirilmişdir. Valideyn himayəsindən məhrum olmuş uşaqlara nahar süfrəsi açılmış və hədiyyələr verilmişdir.

**Məhəmməd VƏLİYEV,**
**"Respublika".**